PREMIUM
BANK

“PREMIUM BANK” ASC-nin

# DİVİDEND SİYASƏTİ

## 1. Ümumi müddəalar

1.1. “Premium Bank” ASC-nin dividend siyasəti (bundan sonra – Siyasət) “Premium Bank” ASC-də (bundan sonra – Bank) dividend siyasətinin əsas prinsiplərini, dividendlərin elan edilməsi və ödənilməsi qaydalarını, dividendlərin ödənilməsi ilə əlaqədar məhdudiyyətləri, habelə bu dividendlərin ödənilməsinin həyata keçirilməsi ilə əlaqədar digər zəruri məsələləri müəyyən edir.

1.2. Siyasət Azərbaycan Respublikasının Mülki Məcəlləsinin, Azərbaycan Respublikasının Vergi Məcəlləsinin, “Banklar haqqında” Azərbaycan Respublikasının Qanununun və Mərkəzi Bankın “Banklarda korporativ idarəetmə Standartları”nın müddəaları əsasında hazırlanmışdır.

1.3. Siyasət Bankın korporativ idarəetmə sisteminin bir hissəsi olub, dividend ödənişlərinin edilməsi zamanı Bank və onun səhmdarlarının maraqlarının balanslaşdırılmasına və səhmdarların qanunvericilik və bankdaxili qaydalarla müəyyən edilmiş hüquqlarının gözlənilməsinə əsaslanır.

1.4. Dividend Siyasəti bankın ümumi maliyyə strategiyasının bir hissəsi kimi, səhmlərin bazar dəyərinin qalxması baxımdan, istifadə edilən kapitallaşdırılan mənfəət arasında optimal nisbəti müəyyən etməkdən ibarətdir.

## 2. Əsas anlayışlar

2.1. dividend - Bankın səhmdarlarının xeyrinə xalis mənfəətinin bölüşdürülməsi, o cümlədən Bank ləğv edilərkən xalis mənfəəti hesabına formalaşan əmlakın (aktivlərin) bölüşdürülməsi, habelə səhmlərin (payların) xalis mənfəət hesabına artırılan nominal dəyəri hüdudlarında geri alınması ilə bağlı pul və ya digər ödəmələr şəklində etdiyi ödəniş.
Qeyd: Bankın ləğvi ilə bağlı əmlakın bölüşdürülməsi nəticəsində əldə edilən gəlir (bölüşdürülməmiş mənfəət hesabına formalaşan əmlak istisna olmaqla), həmçinin səhmdarların səhmlərinin faiz nisbətini dəyişdirməyən səhmlərin bölüşdürülməsi, səhmlərin (hissələrin, payların) nominal dəyəri hüdudlarında geri alınması ilə bağlı edilən ödənişlər dividend sayılmır;

2.2. dividend ödənişi - dividend almaq hüququ olan şəxslərə müvafiq pul məbləğində ödənişin həyata keçirilməsi;

2.3. səhmdar - qanunvericiliyə uyğun olaraq Bankın bir və ya bir neçə sayda səhmlərinin mülkiyyətçisi olan fiziki və hüquqi şəxs(lər);

2.4. Səhmin sonuncu sahibi – AR Milli Depozit Mərkəzi tərəfindən təqdim edilmiş sonuncu reyestrdən çıxarışda göstərilən səhmdarlar;

2.5. dividendlərin ödənilməsi haqqında qərar - Bankın SÜY-ün səhmdara dividend ödənişinin həyata keçirilməsi barədə qərarı;

2.6. xalis mənfəət - yerli və beynəlxalq standarlara uyğun hazırlanmış hesabatlara əsasən müəyyən edilən vergi və digər məcburi ödənişlər ödənildikdən sonra Bankın sərəncamında qalan gəlir.

2.7. SÜY – Səhmdarların Ümumi Yığıncağı.

## 3. Siyasətin əsas prinsipləri

3.1. şəffaflıq - dividendlərin hesablanması, ödənilməsi (elan olunması), habelə ümumilikdə Siyasətin həyata keçirilməsində şəffaf mexanizmin qurulması;

3.2. ədalətlilik - dividendlərin hesablanması, onların məbləği və ödənilməsi qaydaları haqqında məlumatların əldə edilməsi üçün bütün səhmdarların Azərbaycan Respublikasının qanunvericiliyi çərçivəsində bərabər hüquqlarla təmin edilməsi, Bank və onun səhmdarlarının maraqlarının optimal uyğunluğuna nail olunması;

3.3. ardıcıllıq – dividend siyasətinin prosedur və prinsiplərinin mütləq qaydada icrası;

3.4. inkişaf - Siyasətin mütəmadi yenilənməsi və Bankın strateji məqsədlərinin dəyişməsi halında ona yenidən baxılması, eləcə də Bankın investisiya cəlbediciliyinin artırılması, kapitallaşdırılması və gəlirliliyinin yüksəldilməsi zərurəti;

3.5. sabitlik – Bankın sabit dividend ödənişləri etmək təşəbbüsü.

## 4. Dividendlərin elan olunmasına dair qərarın qəbulu

4.1. SÜY tərəfindən maliyyə ilinin nəticələrinə əsasən illik dividendlərin ödənilməsinə və ya ödənilməməsinə dair qərar müvafiq dövrün sona çatmasından sonra üç ay ərzində qəbul edilə bilər. Dividendlərin ödənilməsinə, həmçinin dividendin kateqoriyasına görə dividendlərin ödəniş formasına dair qərar SÜY-ı tərəfindən qəbul edilir.

4.2. Dividendlərin ödənilməsinə dair qərarla aşağıdakılar rəhbər tutulur:

4.2.1. Dividendlərinin ödənişi elan edilən səhmlərin kateqoriyası və növü;

4.2.2. Maliyyə hesabatlarına əsasən Bankın sərəncamında xalis mənfəətin həcmi;

4.2.3. Hər hansı bir səhm kateqoriyası və növü üçün dividendin həcmi;

4.2.4. Ödənişin müddəti;

4.2.5. Ödənişin növü

4.3. Dividendlərdən hər hansı vergilərin tutulması qanunvericilikdə nəzərdə tutulmuşdursa, səhmdarlardan tutulacaq vergilər nəzərə alınmadan dividendlər elan edilir.

## 5. Dividendlərin ödənilməsinə məhdudiyyətlər

5.1. Bank aşağıdakı hallarda səhmlər üzrə dividendlərin ödənilməsini elan edə bilməz;

5.1.1. Bankın nizamnamə kapitalının elan olunmuş məbləği tam ödənilənədək;

5.1.2. Əgər qanunvericiliyinə əsasən bank müflis elan edilibsə və ya dividendlərin ödənilməsi bankın müflis olmasına səbəb olarsa;

5.1.3. Əgər dividendlərin ödənilməsi haqda qərar qəbul edildiyi gündən bankın xalis aktivləri onun nizamnamə kapitalından az olarsa və ya dividendlərin ödənilməsi nəticəsində az olacaqsa, ehtiyyat fondu və nizamnamədə nəzərdə tutulmuş güzəştli səhmlərin dəyərindən az olarsa;

5.1.4. Qanunvericiliyində nəzərdə tutulmuş digər hallarda.

5.2. Bank səhmlər üzrə elan edilmiş dividendləri aşağıdakı hallarda ödəməməlidir;

5.2.1. Əgər qanunvericiliyinə əsasən bank müflis elan edilibsə və ya dividendlərin ödənilməsi bankın müflis olmasına və ya bankın  səbəb olarsa;

5.2.2. Əgər dividendlərin ödənildiyi gün bankın xalis aktivləri onun nizamnamə kapitalından az olarsa, ehtiyyat fondu və nizamnamədə nəzərdə tutulmuş güzəştli səhmlərin dəyərindən az olarsa;

5.2.3. Qanunvericiliyində nəzərdə tutulmuş digər hallarda.

## 6. Dividendi almaq hüququ olan şəxslər

6.1. Hər dividend ödənişi üçün Bankın Hüquq şöbəsi tərəfindən səhmlər üzrə dividend almaq hüququ olan səhmdarların siyahısını tərtib edir.

6.2. Səhmlər üzrə dividend almaq hüququ olan şəxslərin siyahısı, dividendlərin ödənilməsi barədə qərar qəbul edildikdən sonra, yəni hansı səhmlərə dividend ödəniləcəyi müəyyən edildikdən sonra tərtib edilir.

6.3. Dividend almaq hüququ olan səhmdarların siyahısına səhmdarların reyestrində qeydiyyata alınmış (nominal səhmdarlar nəzərə alınmadan) şəxslər və siyahının tərtib edildiyi tarixə nominal səhmdarların xeyrinə səhm saxladıqları şəxslərin adları salınır.

6.4. Əgər bir səhmin bir neçə sahibi varsa və onlar arasında bağlanmış müqavilədə digər hal nəzərdə tutulmayıbsa, onda dividend mütənasib qaydada bölünür.

## 7. Dividendlərin ödənilməsinin forma və müddətləri

7.1. SÜY-nın qərarı və ya bu Siyasətdə fərqli qayda müəyyən edilmədikdə, Maliyyə departamenti elan olunmuş dividendlərin 30 (otuz) gün ərzində səhmdarlara ödənilmələrini təmin edir.

7.2. Dividendlər ödəniş gününə olan səhmin sonuncu sahibinə ödənilir.

7.3. Mənfəət hər bir səhmdara həmin səhmdara sahib olduğu adi səhmlərin sayına müvafiq olaraq bölüşdürülür.

7.4. İdarə Heyəti elan olunmuş dividendlərin səhmdarlara ödənilməsini təmin etməlidir.

7.5. Səhmdar onun dividendlər almaq hüququna malik olan şəxslər siyahısına daxil olunması, həmçinin dividendlərin ödənilməsi qaydası, tarixi və yeri barədə sorğu ilə Banka müraciət edə bilər. Bu halda Bank sorğunun daxil olduğu tarixdən etibarən 3 (üç) iş günü ərzində səhmdara müvafiq cavab göndərməlidir.

7.6. Hüquq şöbəsi SÜY tərəfindən dividendin ödənişi barədə qərar qəbul edilən tarixdən ən geci 5 (beş) iş günü müddətində Mərkəzi Bankı rəsmi olaraq məlumatlandırır.

## 8. Səhmlərə dividendlərin hesablanması qaydası

8.1. Hər bir səhmdara verilən dividendlərin həcmi, bir səhmə düşən dividend məbləğini müvafiq səhmdarın sahib olduğu səhmlərin sayına vurmaqla müəyyən edilir.

8.2. Hər bir səhm növü və tipi üzrə hesablanılmış dividendlərin həcmi, hesablanarkən vergüldən sonra olan qəpiklər yuvarlaq rəqəmədək yuvarlaqlaşdırılmalıdır.

## 9. Dividendlərin ödənilməsinin təşkili

9.1. Dividendlərin ödənilməsinə dair SÜY-ün qərarı olmadan Bank dividendləri ödəyə, səhmdarlar isə onların ödənilməsini tələb edə bilməz.

9.2. Səhmdarlara dividendlərin ödənilməsinin təşkili, koordinasiyası və bununla əlaqədar olan bütün nəzarət tədbirləri bankın İdarə Heyətinin sədri tərəfindən həyata keçirilir.

9.3. İstənilən səhmdar onun adının dividend ödəniləcək şəxslərin siyahısından çıxarılmasına və ya salınmasına, həmçinin dividendlərin hesablanması qaydasına dair, hesablanılmış dividendlərə görə faizlərin ödənilməsinə dair və dividendlərin ödənilmə formasına dair öz təkliflərini banka təqdim edə bilər.

9.4. Bank səhmdarlara dividend ödəyərkən vergi agenti kimi çıxış edir.

9.5. Bank qanunvericiliyində nəzərdə tutulmuş qaydada dividend almaq hüququ olan səhmdarlardan müvafiq vergini tutur və büdcəyə köçürür.

9.6. Dividend səhmdarlara qanunvericilikdə nəzərdə tutulmuş vergilər tutulduqdan sonra ödənilir.

## 10. Elan olunmuş dividendlərin ödənilməsinə görə Bankın məsuliyyəti

10.1. Bank elan olunmuş hər bir səhm növü üzrə dividend ödəməyə borcludur.

10.2. Əgər Bank öhdəliyini icra etmirsə və səhmdarlar elan edilmiş səhmlər üzrə dividendlərini ala bilmirlərsə, onlar məhkəmə yolu ilə öz hüquqlarını tələb edə bilərlər.

10.3. Bu Siyasətin tələblərinin pozulmasına görə, dividendlərin düzgün hesablanmamasına və ödənilməməsinə, habelə bunun nəticəsində Banka dəymiş zərərə görə Bankın məsul şəxsi/şəxsləri və idarəetmə orqanlarının üzvləri qüvvədə olan qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıyır(lar).

## 11. Yekun müddəalar

11.1. Bu Siyasət Müşahidə Şurası tərəfindən təsdiq edildiyi tarixdən qüvvəyə minir.

11.2. Bu Siyasətə dəyişikliklər və əlavələr eyni orqan tərəfindən təsdiq edildikdən sonra hüquqi qüvvəyə malikdirlər.

11.3. Bu Siyasətin hər hansı bir bəndi və ya maddəsi Azərbaycan Respublikasının qanunvericiliyi və ya Bankın nizamnaməsi ilə ziddiyyət təşkil edirsə, ziddiyət aradan qaldırılanadək həmin münasibətləri tənzimləyən Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi və ya bankın nizamnaməsinin tələbləri rəhbər tutulacaqdır.